KREDO

№ 03-04 (1181-1182) 18 yanvar 2024-cü il

# VƏTƏNİN NİCAT YOLU

**Yüksəkliyə can atmaq insanın təbiətindəndir. Torpaq uğrunda canını fəda edən vətən övladı əslində ölmür, ölümü ilə əbədilik qazanır. Bundan böyük hünər, bundan yüksək ucalıq ola bilərmi?!**




Vətənpərvərliyin ən ali məqamı şəhidlikdir. Şəhidlik zirvəsi isə hünər və qeyrət simvoludur. Gənc ömrünü doğma vətəninə calayan, haqqın dərgahına ucalan hər bir şəhid bizə doğmadır. Müqəddəs vətəndə uyuyan hər bir şəhidimizin öz ünvanı, öz taleyi, öz həyat hekayəsi var. Bu ucalığa yüksələnlərin ömür yolu qısa olsa da, şərəfli və örnək sayılır. Belə şərəfli ömür sahiblərindən biri də Qasımlı Nicat Elşən oğludur.

Zaman ötdükcə fəsillər dəyişir, günlər aylar, aylar illəri, illər əsrləri, əsrlər minillikləri əvəz edərək tarix olur. Bu illər ərzində bir çox hadisələr baş verir ki, müəyyən dövrdən sonra yaddaşlardan silinir. Lakin elə tarixi hadisələr də var ki, heç vaxt unudulmur. 44 günlük vətən müharibəsi , 23 saatlıq antiterror əməliyyatı kimi.

Həmin günlər yaddaşlara əbədi həkk olundu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun əks-hücum əməliyyatı Böyük Qələbəmizlə başa çatdı. 30 ilə yaxın həsrətdən sonra ərazi bütövlüyümüz bərpa olundu. Vətənimizin müstəqilliyi, torpaqlarımızın azad olunması naminə ölümü gözə alan gənclərimiz müqəddəs amal uğrunda şəhid olursa, bu, Vətəninə, torpağına bağlı qəhrəmanlar yetişdirən xalqımızın böyüklüyüdür. Dövlət, xalq və ordu birliyi dəmir yumruq olub düşmənin başını əzdi. Mərd oğullarımız tarix yaza-yaza tarixə yazıldılar. Onlar qələbəni tarixin səhifələrinə öz qanları ilə həkk etdilər. Bu müqəddəs yolda canlarından keçərək şəhidlik zirvəsinə ucalanlar, gələcək nəsillərə örnək olacaq ömür yadigar qoydular. Tarixin bütün səhifələrində Vətənimizi yağılardan mərdliklə qoruyan, torpaqlarımızın azadlığı uğrunda cəsarətlə döyüşən qəhrəman əcdadlarının haqq savaşını zəfərlə başa vurdular. Qarabağımızı azad edərək illər boyu bu yolda, bu amal uğrunda şəhid olan bütün soydaşlarımızın ruhlarını şad etdilər.

19-20 sentyabr 2023-cü il tarixində Qarabağda keçirilən ANTİTERROR əməliyyatı nəticəsində təəsüf ki vətənimiz yenidən şəhidlər verdi...

Səhiyyə Nazirliyinin məlumata görə, lokal antiterror tədbirləri zamanı Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 192 hərbi qulluqçusu şəhid olub. Şəhid olmuş hərbçilərdən 180 nəfər Müdafiə Nazirliyinin, 12 nəfər isə Daxili İşlər Nazirliyinin hərbi qulluqçularıdır. Şəhid olanlardan 1 nəfər də mülki şəxsdir.

11 nəfərin şəxsiyyətinin Məhkəmə Tibbi Ekspertiza tərəfindən məhkəmə genetik müayinələr aparıldıqdan sonra müəyyənləşdiriləcəyi qeyd olunmuşdu. Eyni zamanda, lokal antiterror tədbirləri nəticəsində 511 hərbi qulluqçumuz və 1 mülki şəxs yaralanıb. Onu da əlavə edək ki, antiterror tədbirləri zamanı yaralanan hərbi qulluqçumuz Cahan Qasımov oktyabrın 1-də şəhid olub.

Ruhunuz şad olsun haqqınızı heç vaxt ödəyə biləməyəcəyimiz qardaşlarımız! Sizlərin sayəsində dövtətimiz bütövləşdi, xalqımızın 30 ildən çox olan həsrətinə son qoyuldu!

Ali Baş Komandanımız Cənab Prezident İlham Əliyevin güclü siyasətinin gücü naminə aparılan bu antiterror əməliyyatı nəticəsində yağı düşmənlərin əsiri altında olan rayonlarımız da alındı.

İlahi ədalət illər sonra da olsa öz yerini tapdı...

Axıtdığınız hər damcı qanın sayəsində düşmənin böldüyü vətənimiz bütövləşdi. Antirerror əməliyyatından sonra Cənab Prezident İlham Əliyev çıxışlarının birində səsləndirmişdir

"Həyat belədir ki onun əvvəli də var sonu da...heç kim əbədi həyatda qalmır... Ama şəhid olmaq bu doğurdan da xalq qarşısında, tarix qarşısında və gələcək nəsil qarşısında böyük xidmətdi. şəhid əbədi qalır və əməyi, qəhrəmanlığı əvəzolunmazdı, danılmazdı" Haqqları unudulmazdı və unudulmayacaqdır.

Sən axı vəfasız övlad deyildin anasının dadına doymadığı balası...

ŞƏHİD balamız...

Şəhid Qasımlı Nicat Elşən oğlu 2003- cü il avqustun 13-də Tovuz rayonun Donqar Quşçu kəndində anadan olub. Doğulduqdan sonra bu qəhrəman ömrünü Bakı şəhərində yaşayaraq davam edib. Bakı şəhəri Sabunçu rayonu E. Misirxanov adına 71 saylı tam orta məktəbin və Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kollecinin "Bina qurğularının tikintisi və istismarı" ixtisası üzrə təhsil almışdır. Kolleci bitirdikdən sonra 1 iyul 2022-ci ildə hərbi xidmətə çağırılmış və vətənə xidmətə yollanmışdır. Gəncə, Qusar və Goranboy rayonlarda hərbi xidmətlərdə olmuş, olduğu bütün hərbi hissələrdə mərdcəsinə bütün növ döyüş tapşırıqlarını yerinə yetirmişdir. Tapşırıqlarının icrasını hər an yerinə yetirməyə hazır hərbi qruplardan olan "Komando" hərbi hissələrində xidmət etmişdir. 19-20 sentyabr 2023-cü il tarixində Azərbaycan Silahlı qüvvələri Qarabağ bölgəsində Ağdərə istiqamətində həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərini yüksək peşəkarlıq, cəsurluq, qəhrəmanlıq, şücaət göstərərək döyüşən Nicatı vətəninə olan böyük sevgisi onu şəhidlik zirvəsinə ucaltmışdır. 21 sentyabr 2023-cü ildə doğulduğu Tovuz rayonu Donqar Quşçu kənd qəbirstanlığında torpağa tapşırılmışdır.

Bilmirəm bu yazdıqlarımı yazarkən sənin yoxluğuna inanaraq mı yazıram gözəl balamız?

Könülsüz, qəhər içində boğularaq *bu misraları əlimizdə* böyütdüyümüz balamız Nicatın həyat hekayəsinin dastana çevrilməsinə sevinməyən bacısı Aytən olaraq yazıram, çünki sənin həyat hekayənin bu şəkildə dastana çevrilməsini heç vaxt istəməzdim.

Biz səni şadlıq ilə yola saldıq. Təəsüf hissləri ilə dolu idim... çünki sənin hərbi xidmətə getməyinin səbəbi ilə keçirilən o şənliyə gələ bilməmişdim . Amma indi orada olmamağımın içimdə bir rahatlıq hissi də var, çünki orada olsaydım indi daha çox peşmançılıq hissi ilə yaşayardım... çünki orda olan doğmalar səni şadlıqla ŞƏHİDliyə yola saldıqlarını anlamırdılar belə.

Nicatla qohumluq bağımız var. Qohumluqdan yana biz Nicatın ailəsi ilə bir evli, bir ailə kimiyik. Nicat balacalıqdan çox ağıllı idi. Ata-anasına, nənə-babasına, doğmalarına, yaxınlarına qarşı sayğısı hər kəsin dilində əzbər idi. Anasına olan bağlılığı Vətəninə da yansımışdı. Ama vətən uğrunda canından keçdiyi üçün, vətənə bağlılıq, sevgi daha dərin, daha çox olub deyə düşünürəm...

Yer üzündə baş vermiş savaşların tarixi göstərir ki, düşməni zəbt etdiyi torpaqlardan Vətənin igid oğulları qovub çıxarır. Düşməni işğal etdiyi torpaqdan çıxaran Nicat kimi oğulların Böyük Qələbəyə yolu odlu-alovlu səngərlərdən, ölümün gözünə dik baxan igidliyindən, canından-qanından, şəhidliyindən keçib gedirdi...

**Musayeva Aytən**
**AMEA, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu**